**AZƏRBAYCAN RESPUBLİKASI**
**GƏNCƏ ŞƏHƏRİ KƏPƏZ RAYONU KƏPƏZ BƏLƏDİYYƏSİ**

Gəncə şəhəri, Ş.İ.Xətai prospekti, bina 101 tel: (99422) 265-19-10, 265-00-38, faks: 265-01-56 E-mail: kepez_belediyyesi@yahoo.com

№ 11/53 "27" 10 2015 il

**Gəncə şəhər Kəpəz rayon Kəpəz bələdiyyəsinin 27 oktyabr 2015-ci il tarixli iclasının 11№li Protokolundan çıxarış**

***Gəncə şəhər Kəpəz rayon Kəpəz bələdiyyəsinin 2015-2019-cu illər üçün Yerli İnkişaf Planının təsdiq edilməsi haqqında***

**Q Ə R A R**

Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsində bələdiyyələrin yerli əhəmiyyətli məsələləri sərbəst şəkildə həll etmək, iclaslarında yerli proqramlar qəbul və icra etmək, yerli əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək hüquqları və səlahiyyətləri təsbit olunub.

Bu məqsədlə Kəpəz bələdiyyəsinin 2015-2019-cu illər üçün "Yerli sosial müdafiə və sosial inkişaf", "Yerli iqtisadi inkişaf" və "Yerli ekologiya" proqramları qəbul edilmişdir.

Həmin proqramlarda çoxsaylı problemlərin mövcudluğu bələdiyyənin bu məsələləri həll etmək üçün kifayət qədər maliyyə vəsaitinə malik olmasını tələb edir. Eyni zamanda bələdiyyə maliyyə vəsaitlərinə ehtiyatla yanaşmaq, maliyyə çatışmazlığı üzündən qısa zamanda həmin problemləri aradan qaldırmaq üçün məsələləri dərin təhlil edərək həll yollarını tapmaq məqsədilə dəqiq strategiyaya, yəni strateji plana malik olmalıdır.

Buna görə də, strateji planın yerli büdcə vəsaitlərindən səmərəli istifadə edilməsi baxımından bələdiyyələr üçün böyük əhəmiyyəti vardır.

Bələdiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, bələdiyyə və əhalinin qarşılıqlı əməkdaşlıq mühitinin formaşlışdırılması, bələdiyyənin hesabatlılığının artırılması məqsədi ilə Azərbaycanda fəaliyyət göstərən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin dəstəyi ilə Kəpəz bələdiyyəsinin Yerli İnkişaf Planı hazırlanmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq Kəpəz bələdiyyəsinin iclasında

**Q Ə R A R A A L I N D I :**

1. Gəncə şəhər Kəpəz rayon Kəpəz bələdiyyəsinin 2015-2019-cu illər üçün Yerli İnkişaf Planı təsdiq edilsin (əlavə olunur).
2. Kəpəz bələdiyyəsnin Yerli sosial məsələləri, Yerli iqtisadi inkişaf məsələləri və Yerli ekologiya məsələləri daimi komissiyaları, bələdiyyənin icra aparatı Kəpəz bələdiyyəsinin Yerli İnkişaf Planında nəzərdə tutulan tədbirləri öz rüblük və illik iş planına daxil etsinlər və bu tədbirlərin həyata keçirilməsi üçün maksimum səy göstərsinlər.
3. Qərarın icrasına nəzarət bələdiyyə sədrinə həvalə edilsin.

**Gəncə şəhər Kəpəz bələdiyyəsinin sədri:** **Yaşar Abdullayev**

Azərbaycan Respublikası Gəncə şəhər Kəpəz rayonu KƏPƏZ Bələdiyyəsi

"Təsdiq edilmişdir"
Gəncə şəhər Kəpəz rayon Kəpəz
bələdiyyəsinin "27" " 10 2015-ci il
tarixli iclasının "14/53" nömrəli qərarı

Sədr Yaşar Abdullayev

# GƏNCƏ ŞƏHƏR KƏPƏZ RAYON KƏPƏZ BƏLƏDİYYƏSİNİN YERLİ İNKİŞAF PLANI (2015-2019-cu illər)

Artıq 15 ildən çoxdur ki, bələdiyyə qurumu Azərbaycanda yerli özünüidarəetmə kimi ümumi idarəetmə sistemində öz yerini tutmuşdur. Bələdiyyələr yerli əhəmiyyətli məsələləri həll etmək vəzifələrini yerinə yetirir, yerli sosial-iqtisadi və ekoloji məsələlərin həlli istiqamətində proqramlar hazırlayır və öz imkanları daxilində yerli işləri həyata keçirirlər. Kəpəz bələdiyyəsi də öz növbəsində məhdud maliyyə imkanlarını səmərəli şəkildə istifadə etməklə yerli əhaliyə keyfiyyətli xidmətlər göstərməyə çalışmaqdadır.

Demokratiyanın atributlarından biri sayılan bələdiyyələrin Azərbaycanda əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1999-cu il dekabr ayının 12-də çoxmandatlı seçki əraziləri üzrə vətəndaşların sərbəst və gizli səsverməsi yolu ilə ilk dəfə olaraq keçirilmiş bələdiyyə seçkilərində Gəncə şəhərinin Kəpəz rayonunda yerli özünüidarəni həyata keçirən Kəpəz bələdiyyəsi yaradılmışdır.

Kəpəz bələdiyyəsi öz fəaliyyətini 3 istiqamət: 1) Yerli sosial müdafiə və sosial inkişaf; 2) Yerli iqtisadi inkişaf və 3) Yerli ekoloji məsələlər üzrə qurur. Bu istiqamətlərdə əhaliyə səmərəli xidmət göstərmək məqsədi ilə yerli proqramlar hazırlanır. Fəaliyyətlərdən maksimum nəticələrin əldə edilməsi və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin artırılması yolu düzgün planlaşdırmadan keçir. Vətəndaşların yerli özünüidarəetmə orqanlarının fəaliyyətində, o cümlədən büdcə vəsaitlərinin yığılması və istifadəsinə nəzarət etmədə iştirak imkanlarının artırılması, onların bələdiyyə informasiyalarına çıxış imkanlarının artırılması bir tərəfdən vətəndaşların bələdiyyə ilə əməkdaşlıq istəklərini artıracaq, digər tərəfdən isə cəmiyyətdə sosial partnyorluq ənənəsinin yaranmasına təkan verəcəkdir. Ən əsası isə odur ki, iştirakçılıq prinsipi planlaşdırma mərhələsindən başlamalı və yerli əhalinin fikir və rəyləri, təklifləri həmin planda öz əksini tapmalıdır.

Hazırkı Yerli İnkişaf Planı Kəpəz bələdiyyəsi tərəfindən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) maliyyə dəstəyi ilə həyata keçirilən "Cənubi Qafqazda Yerli İdarəetməyə Dəstək" proqramı çərçivəsində hazırlanmışdır. Yerli İnkişaf Planının hazırlanmasında əsas məqsəd bələdiyyənin növbəti 5 ildə yerli səviyyədə əhaliyə həm sosial, həm də iqtisadi sahədə daha keyfiyyətli xidmətlər göstərilməsinə nail olmaq, bələdiyyənin davamlı iqtisadi resurslara sahib olması imkanlarının artırılması və yerli ətraf mühit məsələlərinin həllinə yönələn fəaliyyətlərini gücləndirməkdir.

## 1. Ümumi məlumat

| | | | |
|---|---|---|---|
| **A1. Bələdiyyənin adı:** | Gəncə şəhər Kəpəz rayon Kəpəz bələdiyyəsi | | |
| **A2. Əhatə etdiyi inzibati-ərazi vahidinin adı:** | Gəncə şəhəri Kəpəz rayonu (Hacıkənd və Göygöl qəsəbələri çıxmaqla) | | |
| **A3. Bələdiyyənin ünvanı:** | Gəncə şəhəri, Şah İsmayıl Xətai pr. 101, İnzibati bina | | |
| **A4. Ərazisi:** | **(kv.km) 69,57 (ha) 6957** | | |
| **A5. Bələdiyyə mülkiyyətinə aid torpaqlarının ümumi sahəsi 900,0 ha. Bundan** | **Ümumi istifadədə olan torpaqlar** | **Hüquqi və fiziki şəxslərin istifadəsi və icarəsində olan torpaqlar** | **Ehtiyat fond torpaqlar** |
| | 201,0 | 154,16 | 544,84 |

| **A6. Bələdiyyə ərazisində yaşayan əhalinin sayı *(nəfər, 2014)*:** | **Yaş qrupu** | **Kişi** | **Qadın** | **Cəmi** |
|---|---|---|---|---|
| | 0-5 | 7186 | 5777 | 12963 |
| | 6-18 | 16045 | 14221 | 30266 |
| | 18-35 | 27865 | 28942 | 56807 |
| | 35-60 | 27164 | 31924 | 59088 |
| | 60-dan yuxarı | 7897 | 9967 | 17864 |

| | |
|---|---|
| **A7. Bələdiyyənin qonşu (sərhəd) olduğu kəndlər:** | Nizami (Gəncə ş.) bələdiyyəsi |
| | Göygöl rayon Hacıməlik bələdiyyəsi |
| | Göygöl rayon Quşqara bələdiyyəsi |
| | Goranboy rayon Nizami bələdiyyəsi |
| | Samux rayon Çobanabdallı bələdiyyəsi |
| | Samux rayon Tatlı bələdiyyəsi |
| | Samux rayon Əliuşağı bələdiyyəsi |
| | Samux rayon İnstitut bələdiyyəsi |
| | Samux rayon Sərkar bələdiyyəsi |
| **A8. Yerləşdiyi ərazi (dağ ətəyi, böyük yamac, dərə və s.)** | Kiçik Qafqazın şimal-şərq ətəyini Kür-Araz ovalığındakı Gəncə-Qazax düzənliyində |
| **A9. Şəhər mərkəzindən məsafə və çatmaq üçün vaxt** | **km 3,0 saat 0,15 .** |

**B 1. Bələdiyyə üzvlərinin tərkibi:**

| № | Adı, Soyadı, Atasının adı | Peşəsi / İxtisası | Əlaqə telefonu |
|---|---|---|---|
| 1 | Abdullayev Yaşar Atakişi oğlu | Əmtəəşünas | 050-264-22-33<br>050-375-75-71 |
| 2 | Bağırov Rüstəm Səfdar oğlu | İqtisadçı | 050-286-22-88 |
| 3 | Ələsgərov Şakir Şıxı oğlu | Mühəndis-elektrik | 055-206-03-70 |
| 4 | Məmmədov Elşad Tofiq oğlu | Mühəndis-mexanik, iqtisadçı | 050-357-94-54 |
| 5 | Əhmədov Qəzənfər İslam oğlu | Müəllim | 050-355-47-20 |
| 6 | Əhmədov Natiq Məmməd oğlu | Mühəndis-mexanik | 050-255-01-01<br>070-310-88-59 |
| 7 | Mirzəyeva Yeganə Valəddin qızı | Müalicə işi | 055-956-70-56 |
| 8 | Tağıyev Anar Qurban oğlu | Fizika müəllimi | 055-708-90-91 |
| 9 | Abdullayeva Aynurə Əli qızı | Həkim-nevropatoloq | 050-489-11-22 |
| 10 | Budaqov Hüseyn Tağı oğlu | Tarix müəllimi | 050-588-05-03 |
| 11 | Həsənov Elnur Lətif oğlu | Tarix-coğrafiya müəllimi | 055-257-22-56 |
| 12 | Xasayeva Zərifə Elçin qızı | Filoloq | 055-248-76-22 |
| 13 | İmanlı Eldəniz Elbrus oğlu | Beynəlxalq münasibətlər | 070-375-50-80 |
| 14 | Quliyeva Ramidə Zahid qızı | Kimya-biologiya | 055-462-60-63 |
| 15 | Qəhrəmanova Zümrüd Nağı qızı | Tarix müəllimi | 055-247-94-36 |
| 16 | Məhərrəmova Lalə İlqar qızı | Filoloq | 055-973-09-08 |
| 17 | Məmmədov Fəqan Kərim oğlu | Tarix müəllimi | 050-391-12-47 |
| 18 | Musayev Dilbazı Çovdar oğlu | İnşaatçı mühəndis | 050-397-57-27 |
| 19 | Nəsibova Günay Asim qızı | Tarix və ictimaiyyət | 055-735-79-89 |

**B 2. Bələdiyyə üzvlərinin yaş tərkibi *(nəfər):***

| 18-35 yaş | 35-60 yaş | 60 yaşdan yuxarı |
|---|---|---|
| 11 | 6 | 2 |

**B 3. Daimi və başqa komissiyalar:**

| № | Komissiyanın adı | Statusu | Üzvlərin sayı |
|---|---|---|---|
| 1 | Yerli sosial məsələləri | daimi komissiya | 5 |
| 2 | Yerli ekologiya məsələləri | daimi komissiya | 5 |
| 3 | Yerli iqtisadi inkişaf məsələləri | daimi komissiya | 5 |
| 4 | Yerli büdcə məsələləri | daimi komissiya | 5 |
| 5 | Hüquq məsələləri | daimi komissiya | 5 |
| 6 | Mənzil-istismar və kommunal təsərrüfatı məsələləri | başqa komissiya | 5 |

**B 5. İcra aparatının strukturu:**

| № | Strukturun, bölmələrin adı və vəzifələrin adı | İşçilərin sayı |
|---|---|---|
| 1 | Sədr | 1 |
| 2 | Sədrin müavini | 1 |
| 3 | Ərazi idarəetmə məsələləri üzrə baş məsləhətçi | 1 |
| 4 | Sənədlərlə iş üzrə baş məsləhətçi | 1 |
| 5 | Baş mühasib | 1 |
| 6 | Yerli vergilər üzrə baş müfəttiş | 2 |
| 7 | Hüquqşünas | 1 |
| 8 | Tikinti üzrə mühəndis | 1 |
| 9 | Kompüter-proqramçı | 1 |
| 10 | Sosial-iqtisadi məsələlər üzrə məsləhətçi | 1 |
| 11 | Kommunal təsərrüfatı məsələləri üzrə məsləhətçi | 1 |
| 12 | Mühasib-qeydiyyatçı | 1 |
| 13 | Xəzinədar | 1 |
| 14 | Yerli vergilərin uçotu üzrə müfəttiş | 1 |
| 15 | Yerli vergilər üzrə müfəttiş | 1 |
| 16 | Kadrlar üzrə işin aparıcısı | 1 |
| 17 | Dəftərxana işinin aparıcısı | 1 |
| 18 | Arxiv işinin aparıcısı | 1 |
| 19 | Yerli vergi müvəkkili | 15 |
| 20 | Dayanacaq nəzarətçisi | 15 |
| 21 | Sürücü | 1 |
| 22 | Bağban | 2 |
| 23 | Fəhlə | 2 |
| 24 | Xadimə | 1 |

**B6. Bələdiyyə qulluqçularının/işçilərinin sayı:**

| Kişi | Qadın | Cəmi |
|---|---|---|
| 36 | 7 | 43 |

**B7. Bələdiyyə qulluqçularının/işçilərinin yaş tərkibi:**

| 18-35 yaş | 35-60 yaş | 60 yaşdan yuxarı |
|---|---|---|
| 6 | 22 | 15 |

## 2. Resurslar

**D 1 İnsan:**

| Əhalinin ümumi sayı | Yaş qrupu | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|---|
| 177970 | 0-5 | 7283 | 5810 | 13093 |
| | 6-18 | 16206 | 14282 | 30488 |
| | 18-35 | 27977 | 29092 | 57069 |
| | 35-60 | 27217 | 32199 | 59416 |
| | 60-dan yuxarı | 7916 | 9988 | 17904 |

**D 2. Məşğulluq**

| Kateqoriya | 2014 | 2015 |
|---|---|---|
| Dövlət | 10748 | 10718 |
| Bələdiyyə | 52 | 48 |
| Özəl | 12950 | 12960 |
| Kənd təsərrüfatı | 368 | 375 |
| Fiziki şəxslər | 1054 | 1076 |
| Ev təsərrüfatında işləyənlər | 83 | 94 |
| Din xadimləri | 849 | 851 |

**D 3. Təhsil**

| Adı | 2014 | 2015 |
|---|---|---|
| *Məktəbəqədər müəssisələrin sayı, ədəd* | 27 | 27 |
| Uşaqların sayı, nəfər | 1895 | 1895 |
| Müəllimlərin sayı, nəfər | 201 | 201 |
| *Orta ümumtəhsil məktəblərinin sayı, ədəd* | 24 | 24 |
| Şagirdlərin sayı, nəfər | 18120 | 18923 |
| Müəllimlərin sayı, nəfər | 1963 | 1949 |
| *Peşə təhsil məktəbləri, nəfər* | 3 | 3 |
| Şagirdlərin sayı, nəfər | 842 | 845 |
| Müəllimlərin sayı, nəfər | 65 | 65 |
| *Orta ixtisas təhsil müəssisə. sayı, ədəd* | 1 | 1 |

| | | |
|---|---|---|
| Şagirdlərin sayı, nəfər | 705 | 700 |
| Müəllimlərin sayı, nəfər | 274 | 274 |
| *Ali təhsilli əhalinin sayı, nəfər, onlardan:* | 24900 | 26400 |
| Aqrar (aqranom,zootexnik, mexanik və s; | 168 | 184 |
| Iqtisadçı (iqtisadçı,menecer, mühasib, malyyəçi və s.); | 723 | 708 |
| Texniki (elektrik, inşaatçı, İT, texnoloq və s.; | 1524 | 1496 |
| Humanitar (müəllim, sosioloq, psixoloq və s.) | 206 | 206 |
| Natamam ali təhsilli əhalinin sayı, nəfər | 3500 | 4000 |
| Xüsusi orta təhsilli əhalinin sayı, nəfər | 14900 | 15200 |
| Orta təhsilli əhalinin sayı, nəfər | 76527 | 77240 |
| Natamam orta təhsilli əhalinin sayı, nəfər | 16017 | 16024 |
| İbtidai təhsilli əhalinin sayı, nəfər | - | - |
| Ali təhsil müəssisələrin sayı, ədəd | 2 | 2 |
| Uşaq evlərinin sayı, ədəd | 1 | 1 |
| Orada uşaqların sayı, nəfər | 66 | 66 |
| Valideyn himayəsindən məhrum olmuş uşaq və yeniyetmələrin sayı, nəfər | 150 | 150 |
| Sağlamlıqları məhdud olan uşaqlar üçün təhsil müəssisələrin sayı, ədəd | - | - |
| Həkimlərin sayı, nəfər | 603 | 623 |
| Orta tibb işçilərinin sayı, nəfər | 1150 | 1200 |

**D 4. Su Resursları**

| Adı | 2014 | 2015 |
|---|---|---|
| **Çaylar:** | Gəncəçay | Gəncəçay |
| **Göllər:** | - | - |
| **Su anbarları:** | 18 | 18 |
| **Şəlalələr:** | - | - |
| **Bulaqlar** | - | - |

## 3. Problem və İmkanlar

| Kateqoriya | Problemin təsviri | Problemin yaranma səbəbləri | Problemin yaratdığı fəsadlar | Problemin həlli üçün lazım olan maliyyə vəsaiti | Proble-min həlli üçün icmanın imkanla-rı | Problemin həlli üçün bələdiyyə-nin imkanları | Problemin həlli üçün digər İmkanlar |
|---|---|---|---|---|---|---|---|
| Yerli Sosial məsələlər | Su təminatının yaxşılaşdırılması (Cavadxan qəsəbəsi) | Qəsəbə yeni salınıb, qonşu rayonlardan əhalinin şəhərdə məskunlaşması, əhali artımı, problemin həlli üçün maliyyə çatışmamazlığı. | Əhalinin içməli və məişət suyuna çıxışı çətinləşir, suyu digər mənbələrdən baha qiymətə alırlar (su maşınları), Əhalinin digər mənbələrdən əldə etdiyi suyun müayinəsi aparılmır, bu da müəyyən fəsadlara yol aça bilər. | 25-30.000 AZN | Əl əməyi və qismən maliyyə vəsaiti. | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |
| | İçməli su təminatının yaxşılaşdırılması | Müəyyən artezianlar müvafiq idarələrin balansına götürülməyib. Bəzi artezian və yaxud sub-artezian quyularının istismar müddəti bitib. | Əhalinin içməli suya çıxışı çətinləşir, suyu digər mənbələrdən baha qiymətə alırlar (su maşınları), əhalinin digər mənbələrdən əldə etdiyi suyun müayinəsi aparılmır, bu da müəyyən fəsadlara yol aça bilər. | 35.000 AZN | Əl əməyi və qismən maliyyə vəsaiti | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |
| | Uşaq idman meydançasının salınması (Cavadxan qəsəbəsi) | Qəsəbə yeni salınıb və burada uşaq meydançası olmayıb. | Uşaqların əylənməsi üçün yer yoxdur, valideyinlər uşaqların əylənməsi üçün şəhərin digər yerlərinə mütamadi apara bilmirlər. | 36.000 AZN | Əl əməyi | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Tibb məntəqəsinin tikilməsi. (Cavadxan qəsəbəsi) | Qəsəbə yeni salınıb və burada tibb məntəqəsi olmayıb. | İlkin tibbi yardım almaq uçun əhali başqa müəssisələrə müraciət edir, bu da öz növbəsində bu istiqamətdə xərclərin artmasına səbəb olur. | 50-70.000 AZN | Əl əməyi və qismən maliyyə vəsaiti. | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |
| | Məhəllə daxili yolların bərbad vəziyyətdə olması. | Yeni qəsəbələrin salınması, məhəllə daxili yolların istismar müddətinin bitməsi, əsaslı təmir işlərinin aparılmaması. | Əhalinin şəhər mərkəzinə və lazımi infrastruktura çıxışı çətinləşib, avtomobillərin amortizasiya xərcləri artır, qış aylarında şagirdlərin məktəbə getməsi çətinləşir, Əhalinin bələdiyyəyə inamı azalır və bu da yerli vergilərin yığılmasında çətinlik yaradır | 40.000 AZN 30.000 AZN | Əl əməyi və qismən maliyyə vəsaiti. | Əhalinin səfərbər edilməsi, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər |
| | Məktəbin Elketron informasiya mənbələrinə çıxışının yaxşılaşdırılması (elektron kitabxana) (Cavadxan qəsəbəsi) | Məktəbin əsas şagird heyəti məcburi köçkünlərdən ibarətdir, məktəbin kompüter təhcizatı standartlara cavab vermir, elektron kitabxanaya çıxış yoxdur. | Şağirdlər elektron kitabxanalardan daha zəngin dərs vəsaitləri əldə edə bilmirlər, elektron informasiya və təhsilə yönələn mənbələrə çıxış zəifdir. | 21-28.000 AZN | ------------- | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | İdman meydançalarının cari təmiri | İdman meydançaları daimi istifadə olunduğuna görə cari təmirə ehtiyac duyulur,<br>Əlaqəli qurumların problemi həll etmək üçün kifayət qədər maliyyə vəsaiti yoxdur. | Məşğələlərin keyfiyyəti zəifliyir, Məşqlərə idmançıları cəlb etmək çətinləşir, həvəskar idmana olan həvəs aşağı düşür və s. | 2.000 AZN | ------------ | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. |
| | Qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması | Müvafiq dövlət müəsisəsində lazımi avadanlıqlar və kadr çatışmamazlığı vardır.<br>Digər əlaqəli qurumlar isə çox az sayda bu kateqoriyaya aid uşaqları əhatə edə bilir. | Fiziki qüsurlu uşaqlar vaxtında və lazımınca reabilitasiya kursları keçə bilmir, xəstəliklərə vaxtında müdaxilə və lazımi məsləhətlər verilməsi gecikir. | 60.000 AZN | Əl əməyi və qismən maliyyə vəsaiti. | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət, maliyyə yardımı. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. İmkanlı sahibkarlar xeyriyyəçilik məqsədi ilə problemin həllinə cəlb edilə bilər. |
| | Peşə məktəblərinin təkmilləşdirilməsi | Peşə məktəblərinin maddi texniki bazası zəifdir, müasir peşə sahələri var ki, bu sahələr peşə məktəblərində tədris olunmur, peşə məktəbləri ilə işədüzəltmə idarələri arasında koordinasiya zəifdir, peşə ixtisaslarına gənclərin yönədilməsi zəifdir. | Peşə yönümlü mütəxəssislərin hazırlanması zəifdir, müasir peşələrə digər şəxsi kurslarda yiyələnmək olar ki, bu da kifayət qədər bahadır, az təminatlı ailələrin uşaqları belə kurslarda peşəyə yiyələnə bilmir, bu da işsizliyin artmasına səbəb olur. | 90-150.000 AZN | ------------ | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. |
| Yerli İqtisadi məsələlər | Müvəqqəti avtomobil dayanacaqlarının tikilməsi | Standartlara cavab verən avtomobil dayanacağı yoxdur,<br>böyük büdcə tələb olunur, lazımi kadrların çatışmamazlığı. | Dayanacq işinin təşkilindən bələdiyyə öz büdcəsini kifayət qədər artıra bilər ki, bu da sosisal, iqtisadi və ətraf mühit problemlərinin həll olunmasına dəstək ola bilər. | 800.000 AZN | ------------ | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Biznes-Tədris mərkəzinin yaradılması | Standartlara cavab verən tədris mərkəzinin olmaması, təşəbbüsün olmaması, maliyyə vəsaiti və kadr çatışmamazlığı | Sahibkarlara göstərilən məsləhət xidmətləri zəifdir, sahibkarların təlimləndirilməsi işləri zəif aparılır və s. | 90.000 AZN | ------------ | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. |
| | Turizmin inkişafına dəstək | Turizm potensialı tam öyrənilməyib, turizm istiqamətində təbliğat və təşviqat işlərinin zəif olması | Turizm ilə məşğul olan müəssisələr ərazinin turizm potensialını təbliğ və təşviq edə bilmir. | 40.000 AZN | ------------ | Texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. |
| | Yerli vergilərin uçotu və hesablanmasının asanlaşdırılması | Yerli vergilərin uçotunun və hesablanmasının asanlaşdırılması və təkminləşdirilməsi üçün müvafiq qanunvericiliyə uyğun digital proqramın olmaması | Yerli vergilərin uçotunun aparılması və hesablanmasının daha çox vaxt aparması və bu prosesə daha çox işçi heyətinin cəlb olunması | ------------- | ------------ | Texniki dəstək, təşkilati işlər | --------------- |
| | Bazar və yarmarkaların təşkili | Mövsümü bazar və yarmarkalar təşkil olunmur | Fermerlər öz məhsullarını tez və lazımi qiymətə sata bilmir, bələdiyyə ərazisində yaşayan əhali ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ala bilmirlər. | 15-20.000 AZN | ------------ | Texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər. |
| Ətraf mühit problemləri | Çox mərtəbəli yaşayış binalarının həyətlərinin təmizlənməsi və abadlıq işəri | Əsaslı təmizlik və abadlaşma işlərinin zəif aparılması, əhalinin bu kimi işlərdə etinasız və məsuliyyət hissinin aşağı olması | Bəzi binaların qabağı çirkli vəziyyə düşür, estetik görünüş pozulur və s. | 60.000 AZN (5 il üçün) | ------------ | Texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. |
| | Yaşıllaşdırma işlərinin aparılması (konkret əarazi - 3) | Əvvələr bu ərazilərdə yaşıllıq tamamilə yox və yaxud az idi. | Qulluq və bərpa işləri olunmasa bu yaşıllığın tədricən yox olmasına səbəb ola bilər | 25.000 AZN (5 il üçün) | Əl əməyi, və qismən maliyyə vəsaiti | Əhalinin səfərbər edilməsi, texniki dəstək, təşkilati işlər, əlaqəli qurumlara müraciət. | Şəhər və Rayon icra hakimiyyət problemin həll edilməsinə dəstək verə bilər. Beynəlxalq və milli QHT-lər bu işə cəlb edilə bilər |

## 4. Problemlərin təhlili

### Yerli Sosial problemlərin təhlili

1) Su təminatının yaxşılaşdırılması



2) İcməli su təminatının yaxşılaşdırılması



3) Uşaq meydançasının salınması



4) Tibb məntəqəsinin tikilməsi



5) Məhəllə daxili yolların bərbad vəziyyətdə olması.



6) Elektron kitabxananın yaradılması



7) İdman meydançasının cari təmiri



8) Qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması



9) Peşə məktəblərinin təkminləşdirilməsi



**Yerli İqtisadi problemlərin təhlili**

1) Müvəqqəti dayanacaq məntəqəsinin tikilməsi



2) Biznes tədris mərkəzinin yaradılması



3) Turizmin inkişafına dəstək



4) Yerli vergi uçotu və hesablanmasının asanlaşdırılması



5) Bələdiyyə yarmarkasının təşkili



## Ətraf mühit problemlərinin təhlili

1) Çoxmərtəbəli yaşayış binalarının həyətlərinin təmizlənməsi və abadlıq işəri



2) Yaşıllaşdırma işlərinin aparılması (konkret ərazi -3)



## 5.Problemlərin həllində maraqlı tərəflər

| Əlaqəli və maraqlı tərəflər | | Marağı | Təsiri (necə) | Mümkün əməkdaşlıq |
|---|---|---|---|---|
| **Rayon** | Bələdiyyə | Yerli Sosial və İqtisadi problemin həlli | ++ Maliyyə dəstəyi, təşkilatçılıq, məlumat yaymaq, səfərbərlik, vəsaitin toplanması, layihə təkliflərinin işlənməsi və lazimi müraciətlər | **Rayon** |
| | Rayon İcra Hakimiyyəti | Kəpəz rayonunda olan social, iqtisadi və ətraf mühit problemlərinin həlli və dövlət maraqlarının qorunması | +++ Texniki və maliyyə dəstəyi, əhalinin səfərbər olunması, məlumatlandırma, təşkilatı dəstək | |
| | Əhali | Problemlərin həlli, normal yaşayış səviyyəsi | ++ İşçi qüvvəsi, maddi dəstək, nəzarət, səfərbər olmaq. | |
| **Şəhər** | İcra hakimiyyəti | Əhalinin sosial, iqtisadi və digər problemlərinin həlli | +++ Texniki və maliyyə dəstəyi, əhalinin səfərbər olunması, məlumatlandırma, təşkilati dəstək | **Şəhər** |
| **Donor** | Şərq -Qərb idarəetmə institutu | İcma əsaslı sosial-iqtisadi -ətraf mühit problemlərin həlli | ++ Layihələrin həyata keçirilməsi | **Donor** |
| | Yaponiya səfirliyi | İnfrastrukturun bərpası | ++Maddi yardım | |
| | Başqa maliyyə institutları | sosial-iqtisadi -ətraf mühit problemlərin həlli | ++ Texniki və maddi dəstək | |
| | Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti | Yerli özünüidarətməyə, biomüxtəliflik -ətraf mühit, özəl sektora dəstək, | Əsasən texniki və məsləhət yönümlü dəstək | |
| **Digər** | Regionların sosial iqtisadi inkişafı üçün dövlət proqramı | Regionların sosial və iqtisadi inkişafı | + Maliyyə dəstəyi | **Digər** |
| | Kəpəz rayonu ərazisində olan biznes qurumları | Öz maraqlarına uyğun sosial-iqtisadi və ətraf mühit layihələrinə dəstək | ++ Maliyyə və texniki dəstək | |

## 6. Güclü, Zəif tərəflər, Problem və İmkanlar, Təhlili

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| 1. Kəpəz rayonu İcra hakimiyyəti ilə münasibətlərin yaxşı olması.<br>2. Şəhər İcra hakimiyyəti ilə münasibətlərin yaxşı olması.<br>3. Bələdiyyə üzvlərinin yüksək təhsil potensialı.<br>4. Lazımi insan və digər resursların olması.<br>5. Donorlar ilə əməkdaşlıq təcrübəsi var.<br>6. Bələdiyyənin güclü icra aparatı var.<br>7. Bələdiyyə əməkdaşlıq üçün tam hazırdır.<br>8. Bələdiyyənin müfəssəl hazırlanmış Yerli İnkişaf Planı mövcuddur.<br>9. Sosial və ətraf mühit layihələrinin həyata keçirmək təcrübəsi vardır.<br>10.Bələdiyyə yerli vergilərin hesablanması və uçotunun aparılmasını şəffaf və lazımınca həyata keçirir.<br>11.Bələdiyyə ilə seçicilər arasında münasibətlər yaxşıdır. | 1. Bələdiyyənin gəlir mənbələrinin az olması.<br>2. Bələdiyyə səlahiyyətlərinin yetərincə olmaması.<br>3. Vergilərin lazımınca yığılması üçün lazımi təsir mexanizimlərinin olmaması.<br>4. Layihələrin beynəlxalq standartlara uyğun tərtib edilməsi və idarə olunması üçün müəyyən bilik və bacarıqların az olması.<br>5. Bələdiyyənin xarici əlaqələrinin zəif olması.<br>6. Bələdiyyənin gördüyü işlər haqqında təbliğat yetərincə aparılmır. |
| **İmkanlar** | **Risklər** |
| 1. Kəpəz rayonu İcra hakimiyyəti ilə əməkdaşlıq.<br>2. Şəhər icra hakimiyyəti ilə əməkdaşlıq.<br>3. Kəpəz rayonu ərazisində mövcud biznes qurumları ilə əməkdaşlıq.<br>4.Yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq.<br>5. Digər bələdiyyələrlə əməkdaşlıq.<br>6. Bələdiyyə asosiasiyyaları ilə əməkdaşlıq.<br>7. Bələdiyyələrlə iş mərkəzi ilə əməkdaşlıq.<br>8. Xarici ölkə bələdiyyələri ilə əməkdaşlıq. | 1. Şəhər icra hakimiyyəti və Kəpəz rayonu İcra hakimiyyəti ilə uğursuz əməkdaşlıq.<br>2. Gözlənilməz təbii fəlakət və digər fors major halları.<br>3. Qanunvericilikdə gözlənilməz dəyişikliklər.<br>4. Digər maliyyə qurumları ilə uğursuz əməkdaşlıq.<br>5. Əhalinin vergi ödəməkdən tam olaraq imtina etməsi. |

## 7. Fəaliyyət istiqaməti

| Məqsəd | Vəzifələr | Fəaliyyətlər | Vaxt | Tələb olunan vəsait-AZN | Göstəricilər | Məsul şəxs və ya orqanlar |
|---|---|---|---|---|---|---|
| Yerli Sosial İnkişafın təmin edilməsi | 2)Su təminatının yaxşılaşdırılması (Cavadxan qəsəbəsi) | 1)Smeta sənədənin hazırlanması | 2015-2016 | 300 | 1)Müfəssəl hazırlanmış smeta –layihə sənədləri | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 2)Lazımi təşkilatlara müraciət | 2015-2016 | 200 | 1)Problemin həlli üçün ən az 2 aidiyyatı quruma müraciət etmək | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 3)Layihənin icrası | 2016-2017 | 29.500 | 1)Cavadxan qəsəbəsində nəzərdə tutualn ərazinin ən azı 60% şəbəkələşdirilib | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | 3)İçməli su təminatının yaxşılaşdırılması | 1)Smeta sənədənin hazırlanması | 2015-2019 | 500 | 1)Müfəssəl hazırlanmış smeta –layihə sənədləri | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 2)Layihənin icrası | 2016-2019 | 34.500 | 1)4 il müddətində ən azı 10 içməli su quyusunun (su nasosu, transformator) bərpası | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | 4)Uşaq idman meydançasının salınması (Cavadxan qəsəbəsi) | 1)Layihə- smeta sənədənin hazırlanması | 2015-2016 | 500 | 1)Müfəssəl hazırlanmış smeta –layihə sənədləri | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 2)Müvafiq təşkilatlarla əməkdaşlıq üçün müraciət | 2015-2016 | 500 | 1)Ən az 2 təşkilata müraciət etmək | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 3)Meydançanın tikilməsi | 2016-2017 | 35.000 | 1)Standartlara cavab verən meydançanın tikilməsi | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 5)Tibb məntəqəsinin tikilməsi (Cavadxan qəsəbəsi) | 1)Layihə- smeta sənədənin hazırlanması | 2016 | 500 | 1)Müfəssəl hazırlanmış smeta – layihə sənədləri | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 2)Müvafiq təşkilatlarla əməkdaşlıq üçün müraciət | 2016 | 100 | 1)Ən azı 2 təşkilata müraciət etmək | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 3)Tibb məntəqəsinin tikilməsi | 2016-2017 | 69.400 | 1)Standartlara cavab verən tibb məntəqəsinin tikilməsi | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | 1)Məhəllə daxili yolların bərpası | 1)Smeta sənədənin hazırlanması | 2015-2019 | 500 | 1)Müfəssəl hazırlanmış smeta – layihə sənədləri | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | | 2)Layihənin icrası | 2016-2019 | 39.500-30.000 | 1)Cavadxan qəsəbəsində küçələrin xırlanması 2)Digər küçələrin mövsümü xırlanması | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | 6)Məktəbin Elektron informasiya mənbələrinə çıxışının yaxşılaşdırılması (elektron kitabxana) (Cavadxan qəsəbəsi) | 1)Layihə ilə bağlı əlaqəli qurumlarla müzakirələr aparmaq | 2015-2016 | 100 | 1)Şəhər təhsil idarəsi, məktəb rəhbərliyi və eletron kitabxana ilə bağlı mütəxəssislərin iştirakı, dəyirmi masa müzakirələri | Bələdiyyə sədri və yerli sosial məsələləri daimi komissiyası |
| | | 2)Layihə sənədlərinin hazırlanmsı | 2016 | 400 | 1)Layihə sənədlərinin hazırlanması | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və digər mütəxəssislər |
| | | 3)Elektron kitabxananın yaradılması | 2016-2017 | 27.500 | 1)Kitabxana yaradılıb və istifadəçiləri vardır | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və digər mütəxəssislər |
| | 7)İdman meydançalarının cari təmiri | 1)Layihə- smeta sənədənin hazırlanması | 2015 | 50 | 1)Müfəssəl smeta sənədi | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası |
| | | 2)Meydançaların cari təmiri | 2015 | 19.500 | 1)Ən azı 2 idman meydançasının cari təmiri olunub | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |
| | 8)Qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması | 1)Bu istiqamtətdə araşdırmaların aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi | 2015 | ------------ | 1)Milli və region səviyyəsində bu istiqamətdə vəziyyətin qiymətləndirilməsi | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | 2)Mərkəz üçün yerin ayrılması məqsədilə şəhər rəhbərliyi ilə danışıqların aparılması | 2015 | ------------- | 1)Mərkəz üçün münasib yer ayrılmışdır | Bələdiyyə sədri |
| | | 3)Kadrların hazırlanması | 2016 | 3.000 | 1)Ən azı 2 müəllim və 1 psixoloq təlimlənmişdir | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası |
| | | 4)Mərkəz binasının bərpası və avadanlıqların alınması | 2016-2017 | 57.000 | 1)Təmir olunmuş və lazımi avadanlıqla təhciz olunmuş mərkəz | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və bələdiyyə sədri |
| | 9)Peşə məktəblərinin təkmilləşdirilməsi | 1)Bu istiqamətdə araşdırmaların aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi | 2016 | 1.000 | 1)Ehtiyacın müəyyənləşdirilmə-si və mövcud vəziyyətin qiymətləndirilməsi | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və bələdiyyə sədri |
| | | 2)Kadrların təlimləndirilməsi yeni kadrların cəlb edilməsi | 2016-2017 | 10.000 | 1)Yeni ixtisaslar üzrə kadrların hazırlanması (ən az 10 peşə üzrə). | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası |
| | | 3)Mövcud infrastrukturun bərpası və avadanlıqların alınması | 2017-2018 | 140.000 | 1)Bələdiyyə ərazisində olan ən azı 2 peşə məktəbinin əsas otaqları bərpa olunub və lazımi avadanlıqlarla təmin olunub. | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası |
| Yerli İqtisadi inkişafın təmin edilməsi | 1)Müvəqqəti avtomobil dayanacaqlarının tikilməsi | 1)Şəhər rəhbərliyi ilə danışıqların aparılması | 2015-2016 | --------- | 1)Şəhər rəhbərliyinin bu layihəni təsdiqləyir və dəstək verir | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası |
| | | 2)Layihə-smeta sənədlərin hazırlanması | 2015-2016 | 10.000 | 1)Müfəssəl hazırlanmış smeta sənədləri | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası |
| | | 3)Dayanacaqların tikilməsi və avadanlıqların quraşdırılması | 2016-2017 | 790.000 | 1)Dayanacaqlar və avadanlıqlar quraşdırılıb | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası və icraçı təşkilat |
| | 2)Biznes-Tədris mərkəzinin yaradılması | 1)Araşdırma və qiymətləndirmənin aparılması və konsepsiya sənədinin hazırlanması | 2017 | 5.000 | 1)Araşdırmalar aparılıb, konsepsiya sənədi hazırlanmışdır | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası və bələdiyyə sədri |
| | | 2)Kadrların hazırlanması | 2017-2018 | 20.000 | 1)Ən azı 8 mütəxəssis təlimləndirilib | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | 3)Mərkəzin lazımi avadanlıqlar ilə təhciz edilməsi | 2018-2019 | 20.000 | 1)Sahibkarlara təlim və məhsləhət xidmətləri göstərmək üçün lazımi avadanlıqlar mövcuddur. | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası |
| | 3)Turizmin inkişafına dəstək | 1)Gəncə şəhərinin, xüsusi ilə Kəpəz bələdiyyəsi ərazisinin turizim potensialının müəyyən edilməsi araşdırma aparılması və ehtiyacların qiymətləndirilməsi | 2017 | 10.000 | 1)Turizim potensialı haqqında dolğun hesabat. | Bələdiyyənin yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası |
| | | 2)Gəncə şəhəri üçün turizim strategiya sənədinin hazırlanması | 2017-2018 | 10.000 | 1)Turizimin inkişafı ilə bağlı strategiya sənədi hazırlanmışdır | Bələdiyyənin yerli iqtisadi inkişaf və yerli sosial məsələləri daimi komissiyaları |
| | | 3)Gəncənin turizm potensialı və görməli yerləri ilə bağlı kitabçaların və məlumat vərəqələrinin hazırlanması | 2018-2019 | 20.000 | 1)Məlumatlandırıcı və istiqamətləndirici kitabçalar hazırlanıb və paylanmışdır. | Bələdiyyənin yerli iqtisadi inkişaf və yerli sosial məsələləri daimi komissiyaları |
| | 4)Yerli vergilərin uçotu və hesablanmasının asanlaşdırılması | 1)Təlimlərin və konsultasiya xidmətlərinin göstərilməsi və proqram təminatı xidmətinin göstərilməsi | 2015 | ---------- | 1)Yerli vergilərin uçotunun aparılması və hesablanması qanunvericiliyə uyğun aparılır və xeyli asanlaşdırılıb | Bələdiyyənin yerli iqtisadi inkişaf və yerli sosial məsələləri daimi komissiyaları |
| | 5)Bazar və yarmarkaların təşkili | 1)Şəhər rəhbərliyi ilə razılaşdırmaq | 2017-2019 | ----------- | Bu kimi tədbirləri şəhər rəhbərliyi təsdiq edir və dəstək göstərir | Bələdiyyənin yerli iqtisadi inkişaf və yerli sosial məsələləri daimi komissiyaları |
| | | 2)Yarmarkaların təşkili | 2017-2019 | 20.000 | İldə ən azı bir dəfə belə yarmarkalar təşkil olunmuşdur | Bələdiyyənin yerli iqtisadi inkişaf və yerli sosial məsələləri daimi komissiyaları |
| Ətraf mühit problemləri-nin həlli | 1)Çoxmərtəbəli yaşayış binalarının həyətlərinin təmizlənməsi və abadlıq işəri | 1)Müəyyən edilmiş ərazilərin təmizlənməsi, yüngül bərpa işlərinin aparılması | 2015-2019 | 60.000 | 1)5 il müddətində əvvəlcədən müəyyən edilmiş ərazilər təmizlənmişdr | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri. |
| | 2)Yaşıllaşdırma işlərinin aparılması (konkret 3ərazi ) | 1)Əvvəlcədən müyyən edilmiş ərazilərdə aqrotexniki qaydalara uyğun yaşıllaşdırma işlərinin aparılması | 2015-2019 | 25.000 | 1)5 il müddətində ən azı 3 ərazidə yaşıllaşdırma işlərinin aparılması | Bələdiyyənin yerli sosial məsələləri daimi komissiyası və icra aparatı işçiləri |

## 8. Büdcə

| N | Fəaliyyətin adı | Fəaliyyət üçün tələb olunan məbləğ-AZN | Bələdiyyənin qoyduğu pay | İcmanın qoyduğu pay | Donorun qoyduğu pay | Başqa mənbələr |
|---|---|---|---|---|---|---|
| **Yerli sosial problemlər** | | | | | | |
| 1 | Su təminatının yaxşılaşdırılması (Cavadxan qəsəbəsi) | **30.000** | 10% | 5% | 85% | |
| 2 | İçməli su təminatının yaxşılaşdırılması | **35.000** | 80% | 10% | 10% | |
| 3 | Uşaq idman meydançasının salınması (Cavadxan qəsəbəsi) | **36.000** | 0% | 10% | 90% | |
| 4 | Tibb məntəqəsinin tikilməsi (Cavadxan qəsəbəsi) | **70.000** | 2% | 10% | 88% | |
| 5 | Məhəllə daxili yolların bərpası | **40.000** | 5% | 5% | 90% | |
| 6 | Məhəllə daxili yolların bərpası | **30.000** | 100% | 0% | 0% | |
| 7 | Məktəbin elektron informasiya mənbələrinə çıxışının yaxşılaşdırılması (elektron kitabxana) (Cavadxan qəsəbəsi) | **28.000** | 5% | 5% | 90% | |
| 8 | İdman meydançalarının cari təmiri | **2.000** | 100% | 0% | 0% | |
| 9 | Qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması | **60.000** | 20% | 0% | 80% | |
| 10 | Peşə məktəblərinin təkmilləşdirilməsi | **150.000** | 20% | 0% | 80% | |
| **Yerli iqtisadi problemlər** | | | | | | |
| 1 | Müvəqqəti avtomobil dayanacaqlarının tikilməsi | **800.000** | 0% | 0% | 100% | |
| 2 | Biznes-Tədris mərkəzinin yaradılması | **90.000** | 0% | 5% | 95% | |
| 3 | Turizmin inkişafına dəstək | **40.000** | 10% | 0% | 90% | |
| 4 | Bazar və yarmarkaların təşkili | **20.000** | 10% | 0% | 90% | |
| **Yerli ekoloji problemlər** | | | | | | |
| 1 | Çoxmərtəbəli yaşayış binalarının həyətlərinin təmizlənməsi və abadlıq işəri | **60.000** | 100% | 0% | 0% | |
| 2 | Yaşıllaşdırma işlərinin aparılması (konkret 3 ərazi) | **25.000** | 100% | 0% | % | |

## 9. Fəaliyyət Planı

| **Fəaliyyət planı** | **2015** | | | | **2016** | | | | **2017** | | | | **2018** | | | | **2019** | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Yerli sosial problemlər** | | | | | | | | | | | | | | | | | | | | |
| Su təminatının yaxşılaşdırılması (Cavadxan qəsəbəsi) | | | x | x | x | x | x | x | x | x | x | | | | | | | | | |
| İçməli su təminatının yaxşılaşdırılması | | | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| Uşaq idman meydançasının salınması (Cavadxan qəsəbəsi) | | | | x | x | x | x | x | x | x | x | x | | | | | | | | |
| Tibb məntəqəsinin tikilməsi (Cavadxan qəsəbəsi) | | | | | x | x | x | x | x | x | x | x | | | | | | | | |
| Məhəllə daxili yolların bərpası | | | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| Məktəbin elektron informasiya mənbələrinə çıxışının yaxşılaşdırılması (elektron kitabxana) (Cavadxan qəsəbəsi) | | | | x | x | x | x | x | x | x | x | x | | | | | | | | |
| İdman meydançalarının cari təmiri | | | x | x | | | | | | | | | | | | | | | | |
| Qüsurlu uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması | | | | x | x | x | x | x | x | x | x | | | | | | | | | |
| Peşə məktəblərinin təkmilləşdirilməsi | | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x | | | | |
| **Yerli iqtisadi problemlər** | | | | | | | | | | | | | | | | | | | | |
| Müvəqqəti avtomobil dayanacaqlarının tikilməsi | | | | x | x | x | x | x | x | x | x | x | | | | | | | | |
| Biznes-Tədris mərkəzinin yaradılması | | | | | | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| Turizmin inkişafına dəstək | | | | | | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| Bazar və yarmarkaların təşkili | | | | | | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| **Yerli ekoloji problemlər** | | | | | | | | | | | | | | | | | | | | |
| Çoxmərtəbəli yaşayış binalarının həyətlərinin təmizlənməsi və abadlıq işəri | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x |
| Yaşıllaşdırma işlərinin aparılması (konkret 3 ərazi) | | | | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x |

## 10. Monitorinq və qiymətləndirmə

Monitorinq və qiymətləndirmə Yerli inkişaf planının vəzifələrinə uyğun olaraq bələdiyyənin əlaqəli komissiyaları tərəfindən ildə 2 dəfə aparılacaqdır. Monitorinqin nəticələrinə dair hesabat hazırlanacaq və müxtəlif üsullarla əhaliyə çatdırılacaqdır. Qiymətləndirməni aparmaq üçün isə aşağıda nümunə kimi verilmiş cədvəldən istifadə edilməsi məqsədəuyğun hesab edilməkdədir.

| **Planlaşdırılmış işin təsviri** | **Fəaliyyətlərin təsviri** | **Məbləğ** | **İcra olunduğu il, ay** | **Məsul şəxs** | **Nəticə** |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

# MÜNDƏRİCAT

1. Ümumi məlumat ........................................ 2
2. Resurslar ........................................ 5
3. Problem və İmkanlar ........................................ 7
4. Problemlərin təhlili ........................................ 11
Yerli Sosial problemlərin təhlili ........................................ 11
Yerli İqtisadi problemlərin təhlili ........................................ 20
Ətraf mühit problemlərinin təhlili ........................................ 25
5. Problemlərin həllində maraqlı tərəflər ........................................ 27
6. Güclü, Zəif tərəflər, Problem və İmkanlar, Təhlili ........................................ 28
7. Fəaliyyət istiqaməti ........................................ 29
8. Büdcə ........................................ 33
9. Fəaliyyət Planı ........................................ 34
10. Monitorinq və qiymətləndirmə ........................................ 35